

# Səhnənin və ömrün 65 ili...

## İftixar Piriyevin həyat və teatr hekayəsi

Bu gün bir sənət insanının həyatı, səhnədə və ekranda qoyduğu izlər xatırlanır. Teatr və kino aktyoru, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev 65 yaşını qeyd edir. 65 sadəcə rəqəm deyil, bu, həyatın, sənətin və insan ruhunun dərinliyini göstərən bir mərhələdir. Bu yaşda hər təbəssüm, hər baxış, hər söz illərin təcrübəsi, müdrikliyi və sənət zənginliyi ilə doludur.

İ. Piriyev 1981-ci ildə Dövlət İncəsənət Universitetinin "Dram və kino aktyorluğu" fakültəsini bitirib. Elə həmin ildən Akademik Milli Dram Teatrında aktyor kimi fəaliyyətə başlayıb. Burada o, müxtəlif səpkili və xarakterli 30-dan çox obraz yaradıb.

Aktyor bir çox ədəbi-bədii verilişlərdə də çıxış edib, "Ozan" folklor toplusunun aparıcısı olub. 1990-cı ildə özəl Azərbaycan Milli "Dastan" Teatrını yaradıb, onun direktoru və bədii rəhbəri kimi fəaliyyət göstərib. Çoxşaxəli fəaliyyət növü ilə məşğul olan həmin teatrın nəzdində yaratdığı "Dastan" turizm şirkətinə də rəhbərlik etmişdi.

O, 1998-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən iki il müddətinə Tiflis Azərbaycan Dövlət Dram Teatrının bərpası ilə bağlı Gürcüstan Respublikasına ezam olunur. Beləliklə, Gürcüstan Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə bərpa rəhbəri təyin edilir.

İ.Piriyev 2000-ci ildən etibarən isə İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor təyin olunub. Aktyor müsahibələrinin birində qeyd edib ki, 2000-ci ildə bu teatra rəhbər təyin olunduqdan sonra teatrın köhnə ənənələrini davam etdirmək üçün bu istiqamətdə addımlar atmağa çalışır: "İrəvan Teatrının tarixində bu tipli addımlar mövcuddur. Hələ İrəvanda fəaliyyət göstərərkən keçən əsrin əvvəllərindən başlayaraq görkəmli sənətkarlar dəvət əsasında bu teatrla həm rejissor, həm aktyor qismində əməkdaşlıq ediblər. 2000-ci ildən bu günə qədər bir neçə tamaşaya hətta Gürcüstandan, Dağıstandan aktyorlar dəvət etməklə, respublika və beynəlxalq miqyaslı layihələr həyata keçirmişik. Səhnələşdirdiyimiz "Qanlı qızıl toy" tamaşasına Xalq artisti Rafael Dadaşovu dəvət etmişdik. Bizim də Akademik Milli Dram Teatrına dəvət alan aktyorlarımız var idi. Bəzi rolları oynamaq üçün əməkdaşlıq edirik.

İrəvan Teatrı vaxtilə deportasiya həyatı yaşadığına və ölkəmiz Ermənistanla müharibə şəraitində olduğuna görə, repertuarımızda əsərlərin çox hissəsi vətənpərvər mövzular da olur".

İ.Piriyev 16 oktyabr 2007-ci ildə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif olunub. Bundan başqa, 9 may 2018-ci ildə, 10 may 2019-cu ildə və 7 may 2020-ci ildə Prezident Mükafatına layiq görülüb.

Bu gün sənətçinin gözlərində minlərlə obraz canlanır, o, yalnız aktyor deyil, zamanın özü ilə dialoq aparmış, hər rolu ilə insan qəlbinə toxunmuş biridir. Bu yaşda hər uğur daha dəyərli, hər xatirə daha parlaq görünür. 65 il isə səhnədəki səssiz baxışların, kameranın önündəki duyğuların və tamaşaçının qəlbində qalacaq izlərin məcmusudur. Onun həyat yolu göstərir ki, sənət insanı yaşla deyil, qoyduğu işıqla ölçülür.

***Yeganə BAYRAMOVA***